# STOMATOLOJİ TİBB MÜƏSSİSƏLƏRƏ (KABİNETLƏRƏ) DAİR SANİTARİYA-GİGİYENA TƏLƏBLƏRİ

## 1. Ümumi müddəalar və tətbiq sahələri

1.1. "Stomatoloji tibb müəssisələrə (kabinetlərə) dair sanitariya-gigiyena tələbləri (bundan sonra "Sanitariya qaydaları") "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununu rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 7 aprel 2009-cu il tarixdə təsdiq edilmiş və 16 aprel 2009-cu il tarixdə Ədliyyə Nazirliyində qeydə alınmış "Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair Qaydalar"a uyğun olaraq hazırlanmışdır.

1.2. Bu sanitariya qaydaları mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq hüquqi şəxslər və stomatoloji yardım fəaliyyətini həyata keçirən fərdi sahibkarlar üçün nəzərdə tutulmuşdur.

1.3. Bu sanitariya qaydaları stomatoloji yardım göstərmək və avadanlığın, tibbi texnika və tibbi təyinatlı məhsulların istismarı üçün nəzərdə tutulmuş bina və sahələrin layihələşdirilməsi, tikintisi, yenidən qurulması fəaliyyətini həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən Azərbaycan Respublikası ərazisində icra etmək üçün məcburidir.

1.4. Sanitariya qaydaları stomatoloji tibbi müəssisələrin (kabinetlərin) – bundan sonra "stomatoloji müəssisə"lərin yerləşdirilməsinə, quruluşuna, avadanlıqla təchizatına, saxlanmasına, sanitariya-epidemioloji rejimin gözlənilməsinə və tibbi personalın əmək şəraitinə dair tələbləri müəyyənləşdirir.

1.5. Yeni stomatoloji müəssisələrin layihələşdirilməsi və tikintisi, mövcud olanların isə yenidən qurulması bu sanitariya qaydalarının tələblərinə uyğun həyata keçirilməlidir.

1.6. Stomatoloji müəssisə Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyənləşdirilmiş lisenziyalaşdırma üçün müraciət edilən tibbi fəaliyyət növlərinin, iş və xidmətlərin həyata keçirilmə şəraitinin sanitariya tələblərə uyğunluğu haqqında dövlət sanitariya-epidemioloji nəzarəti orqanlarının müsbət rəyinə malik olmalıdır.

1.7. Sanitariya qaydalara riayət edilməsinə Dövlət sanitariya-epidemioloji nəzarəti həyata keçirməyə səlahiyyətli olan ərazi gigiyena və epidemiologiya mərkəzləri həyata keçirir.

1.8. Hər bir stomatoloji müəssisə bu sanitariya qaydaların çap edilmiş nüsxəsinə malik olmalıdır.

1.9. Sanitariya əks epidemik rejimin tələblərinə riayət edilməsinə görə məsuliyyət fərdi sahibkarlara, hüquqi şəxslərə, onların rəhbərlərinə və digər vəzifəli şəxslərə həvalə edilir.

1.10. Tibbi texnika, tibbi təyinatlı predmetlər, tikinti və bəzək materiallarının, eləcə də istifadə edilən tibbi texnologiyanın Azərbaycan Respublikası ərazisində müəyyənləşdirilmiş qaydada istifadə edilməsinə icazə verilir.

1.11. Əks epidemik rejimə riayət edilməsi məqsədi ilə həkim orta tibb işçi heyətinin müşaiyəti ilə işləməlidir. Orta tibb işçi heyəti iş yerlərinin təmizlənməsini, dezinfeksiyasını, eləcə də mərkəzləşdirilmiş sterilizasiya şöbəsi olmadıqda tibbi vəsaitin sterilizasiyaönü təmizlənməni və sterilizasiyanı həyata keçirir.

1.12. Tərkibində stasionarı, o cümlədən gündüz stasionarı olan stomatoloji müəssisəsində stasionar şöbəsi "Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair Qaydalar"ın tələblərinə uyğun qurulmalıdır.

## 2. Stomatoloji tibbi müəssisələrin (kabinetlərin) yerləşdirilməsinə qoyulan tələblər

2.1. Stomatoloji müəssisələr sanitariya qayda və normalara riayət edilməsi şərti ilə ayrıca duran binalarda, uyğunlaşdırılmış sahələrdə, yaşayış və ictimai təyinatlı binanın içərisində tikilmiş (tikilib əlavə edilmiş) sahələrdə yerləşdirilə bilərlər.

2.2. Yaşayış binalarında stomatoloji kabinetləri, stomatoloji ambulator-poliklinik müəssisələri, tərkibində gündüz stasionarına malik olan təşkilatları yerləşdirməyə icazə verilir.

2.3. Yaşayış binalarında yerləşdirilmiş stomatoloji müəssisələr küçədən ayrıca girişə malik olmalıdırlar.

2.4. Stomatoloji müəssisələr təsərrüfat-içməli soyuq və isti su təchizatı və su ayırma (knalizasiya) sistemləri ilə avadanlıqlaşdırılmış sahələrdə yerləşdirilir.

2.5. Rentgen kabinetlərinin, aparatlarının yerləşdirilməsi və istismarı (o cümlədən, radiovizioqrafların) qüvvədə olan normativ sənədlərlə və bu qaydaların 7 bölməsi ilə nizamlanır.

2.6. Fizioterapiya kabinetlərinin quraşdırılması, avadanlıqlaşdırılması və istismarı, lazerlərin tətbiq edilməsi qüvvədə olan normativ sənədlərə cavab verməlidirlər.

2.7. Binanın zirzəmi və yarımzirzəmi sahələrində stomatoloji müayinə-müalicə kabinetlərinin yerləşdirilməsinə icazə verilmir. Burada işçilər üçün sanitariya-məişət otaqları (qarderob, duş otağı, sanitar qovşaq və s.), kompressor avadanlığı, ventilyasiya qurğuları və s. texniki otaqlar yerləşdirilə bilər.

2.8. Uşaqların stomatoloji qəbul edilməsini təşkil etmək üçün ayrıca kabinetlər ayrılır. Uşaq əhalisinin qrafik üzrə qəbulu üçün böyüklərin qəbul kabinetindən istifadə edilməsinə yol verilmir. Uşaqların qəbulu üçün nəzərdə tutulmuş müayinə-müalicə kabinetlərinin ayrıca girişi olmaqla, gözləmə sahəsi sanitariya qovşağı ilə təchiz edilməlidir.

2.9. Hamilələrə tibbi yardımın göstərilməsi böyüklər üçün olan stomatoloji müəssisələrdə, yaxud qadın məsləhətxanalarının stomatoloji kabinetlərində keçirilir.

2.10. Stomatoloji kabinetlərdə əsas stomatoloji kürsü üçün sahə 14 kv. metrdən az olmayaraq, əlavə kürsü üçün isə -10 m2, universal stomatoloji qurğusu (bor cihazı) olmayan stomatoloji kürsü üçün -7 m2 sahə nəzərdə tutulur. Kabinetlərin hündürlüyü 3 m-dən az, bir tərəfli işıqlanma zamanı otağın uzunluğu isə 6 m-dən çox olmamalıdır.

2.11. Anesteziologiya və reanimatologiya üzrə tibbi fəaliyyətin həyata keçirildiyi operativ müdaxilələr əməliyyat bloku şəraitində keçirilir. Müvafiq halda əməliyyatdan sonra pasientin müvəqqəti qalması üçün yer avadanlıqlaşdırılır. Ehtiyac olduqda əməliyyat otağında tibbi qazların verilməsi təmin edilir.

2.12. Cərrahi stomatologiya kabinetinin işi «təmiz» (planlı) və «irinli» müdaxilələr axınının bölüşdürülməsi nəzərə alınmaqla təşkil edilir. Planlı müdaxilələr xüsusi olaraq ayrılmış günlərdə qabaqcadan əsaslı təmizlik işləri keçirilməklə həyata keçirilir. Cərrahiyyə əməliyyat blokundan digər şöbələrə keçid olmamalıdır.

2.13. Otaqların sayı stomatoloji müəssisənin gücü və fəaliyyət növləri ilə təyin edilir. Yerlərin minimal sahəsi və onların minimal sayı Əlavə 1-də verilir.

## 3. Sahələrin daxili bəzəyinə qoyulan tələblər

3.1. Sahələrin daxili bəzəyində istifadə edilən bütün materiallara tətbiq edilmə sahəsinə uyğun olaraq sanitariya-epidemioloji rəy olmalıdırlar.

3.2. Stomatoloji kabinetlərin divarları, divarların, tavanın və döşəmənin birləşdirilmə bucaqları və yerləri deşiksiz hamar olmalıdırlar.

3.3. Kabinetlərdə divarları bəzəmək üçün dezinfeksiyaya davamlı olan rütubətli, aseptik rejimli yerlərdə istifadə etmək üçün icazə verilmiş naxış materiallarından istifadə edilir. Əməliyyat otaqlarının, cərrahi stomatologiya kabinetlərinin və sterilizasiya otaqlarının divarları bütün hündürlük boyu minalanmış plitə, yaxud bu məqsəd üçün icazə verilmiş başqa materiallarla bəzənilir.

3.4. Diş-texniki laboratoriyanın əsas sahələrinin divarları boya ilə boyanır, yaxud hamar səthə malik olan panellərlə üzlənir; germetik olaraq tikişlə bağlanır.

3.5. Stomatoloji kabinetlərin, əməliyyat otaqlarının, əməliyyata qədər otaqların, sterilizasiya otaqlarının və diş-texniki laboratoriyaların tavanları sulu emulsiya, yaxud başqa boyalarla boyanır. Əgər otağın normativ hündürlüyünə təsir etmirsə, onda asma tavanlardan istifadə etmək mümkündür. Asma tavanlar, yuyucu maddələrin və dezinfektantların təsirinə davamlı, hamar deşiksiz səthə malik lövhələrdən (plitələrdən) yerinə yetirilməlidir.

3.6. Stomatoloji kabinetlərdə döşəmələr, bu məqsədlər üçün icazə verilmiş materiallardan olan hamar örtüyə malik olmalıdır.

3.7. Stomatoloji kabinet və diş-texniki laboratoriya otaqlarında divar və döşəmə səthinin rəngi, selikli qişaların, dəri örtüklərinin, qanın, dişlərin (təbii və süni), plomblaşdırıcı və diş protezləşdirici materialların boya çalarlarının rəngini düzgün fərqləndirmək üçün mane olmayan neytral açıq rəngə malik olmalıdır.

3.8. Civə amalqamasından istifadə edilən stomatoloji kabinetləri bəzəyən zaman:

- divar və tavanlar hamar, deşiksiz və bəzəksiz; civə buxarlarını möhkəm birləşmədə (kükürdlü civə) birləşdirmək üçün 5 % kükürd tozu əlavə edilməklə suvaqlanmış (kərpic), yaxud sıxılmış (*silinmiş panel*) və stomatoloji kabinetlər üçün icazə verilən boyalarla boyanmalıdır.
- döşəmələr rulon materiallarla döşənməli, bütün tikişlər qaynaqlanmalı, döşəmə yaşmağı divara və döşəməyə kip bitişməlidir.
- amalqamla işləmək üçün masalar civə keçirməyən materialla örtülməli və kənarlarda yanlara malik olmalıdır. Masaların iş görülən səthində açıq yeşiklər olmamalıdır; yalnız germetik bağlı kapsullarda buraxılan amalqamdan istifadə etməyə icazə verilir.

## 4. Avadanlığa qoyulan tələblər

4.1. Birtərəfli təbii işıqlandırılması olan kabinetlərdə stomatoloji kürsülər işıqdaşıyıcı divar boyu bir sıra ilə quraşdırılır.

4.2. Kabinetdə bir neçə stomatoloji kürsü olduqda onlar hündürlüyü 1.5 m-dən az olmayan qeyri-şəffaf arakəsmələrlə bölünürlər.

4.3. Stomatoloji müəssisələrdə sterilizasiya otağının olmamasına yalnız ən çoxu 3 kürsü olduqda icazə verilir. Müvafiq halda sterilizasiya avadanlığının quraşdırılması bilavasitə kabinetlərdə mümkündür.

4.4. Stomatoloji kabinetlər əl yumaq və alətləri təmizləmək üçün ayrıca, yaxud ikiseksiyalı rakovinalarla təmin edilir. Sterilləşdirmə otağı olduqda və burada mərkəzləşdirilmiş sterillizasiyadan qabaq tibbi alətlərin təmizlənməsi təşkil edildikdə kabinetlərdə bir əl-üzyuyan olmasına icazə verilir. Əməliyyat blokunda rakovinalar əməliyyatdan qabaq otaqda quraşdırılır. Cərrahiyə otaqlarında, sterilizasiya otaqlarında, əməliyyataqədər otaqlarda dirsək və sensor suqarışdırıcılar quraşdırılır.

Əlüzyuyan və digər sanitar-texniki cihazların, eləcə də istismar zamanı divar və arakəsmələri nəmləndirən digər avadanlığın quraşdırıldığı yerlərdə, divar və arakəsmələr döşəmədən 1,6 m hündürlükdə və cihazların hər tərəfinə 20 sm enində suya davamlı materiallarla üzlənməlidir.

4.5. Gipslə iş görülən diş-texniki laboratoriya otaqları və stomatoloji kabinetlər kanalizasiyaya buraxmazdan qabaq axar sulardan gipsin çökməsi üçün avadanlığa malik olmalıdırlar (gips tutanlar və s.)

4.6. Kabinetlər bu məqsəd üçün müəyyənləşdirilmiş qaydada icazə verilmiş bakterisid şüalandırıcılar, yaxud havanı zərərsizləşdirici digər qurğularla təmin edilir. Açıq tipli şüalandırıcılardan istifadə edən zaman söndürücülər iş yerlərinin hüdudlarından kənara çıxarılmalıdır.

## 5. Mikroiqlimə, istilik təchizatına və ventilyasiyaya qoyulan tələblər

5.1. Havanın isidilməsi, ventilyasiyası və kondisiyalaşdırılması yaşayış və ictimai binaların layihələşdirilmə və tikinti normalarına uyğun olmalı və mikroiqlim və hava mühitini, o cümlədən, mikrobioloji göstəricilərə görə optimal parametrləri təmin etməlidir.

5.2. Qızdırıcı cihazlar, yüngülvari təmizlənməsi icazə verilən və mikroorqanizmlərin və tozun yığılmasını istisna edən səthə malik olmalıdır.

5.3. Əməliyyat, əməliyyataqədər, narkoz, əməliyyatdan sonra otaqlarda hamar səthli, yuyucu və dezinfeksiya edən vasitələrin gündəlik təsirinə davamlı olan qızdırıcı cihazlardan istifadə edilməlidir.

5.4. Tibb işçi heyətinin iş vaxtının 50%-dən çoxunu keçirdiyi, yaxud 2 saatdan artıq fasiləsiz iş gördüyü daimi iş yerlərində mikroiqlim parametrləri cədvəl 1-ə uyğun təmin edilməlidir.

5.5. İşləyənlərin müvəqqəti olduğu yerlər üçün (diş-texniki laboratoriyalar üçün xüsusi yerlər) mikroiqlim parametrləri cədvəl 2-ə verilir.

5.6. Ventilyasiya sistemlərinin layihələşdirilməsi və istismarı hava kütlələrinin «çirkli» zonadan «təmiz» zonaya axmasını istisna etməlidir.

5.7. Stomatoloji tibbi təşkilatlarda havada dərman vasitələrinin və zərərli maddələrin olması onlar üçün yol verimüəyyənləşdirilmiş qaydada təsdiq edilmiş konsentrasiyalardan yüksək olmamalıdır.

**Cədvəl 1.**

**Əməkdaşların daimi oturduğu otaqlarda mikroiqlim parametrləri**

| Mövsüm | Temperatur °C | Nisbi rütübət % | Havanın hərəkət surəti m/s |
|---|---|---|---|
| Soyuq və keçici (xarici havanın orta sutkalıq temperaturu +10°C və aşağı) | 18-23 | 60-40 | 0.2 |
| İsti (xarici havanın orta sutkalıq temperaturu +10°C və yuxarı) | 21-25 | 60-40 | 0.2 |

**Cədvəl 2**

**Əməkdaşların müvəqqəti olduğu otaqlarda mikroiqlim parametrləri**

| Mövsüm | Temperatur °C | Nisbi rütübət % | Havanın hərəkət surəti m/s |
|---|---|---|---|
| Soyuq və keçici | 17 - 25 | 75 artıq olmamaqla | 0.2-0.3 |
| İsti | 28 artıq olmamaqla | 65 dən artıq olmamaqla | 0.2 – 0.5 |

5.8. İstehsal sahələrində normativ mikroiqlim parametrlərini təmin etmək, o cümlədən, müalicə-profilaktika müəssisələrində istifadə etmək üçün nəzərdə tutulmuş split-sistemləri tətbiq etməklə havanın kondisiyalaşdırma qurğusuna icazə verilir. Zərif təmizləmə filtrlərinin əvəz edilməsini, əgər istehsalçı tərəfindən başqa şey nəzərdə tutulmayıbsa, 6 ayda bir dəfədən az olmamaqla həyata keçirmək lazımdır.

5.9. 3 ədəddən artıq stomatoloji kürsüsü olmayan, həmçinin yaşayış və inzibati binaların yaşayış üçün olmayan (boş) mərtəbələrində yerləşmiş stomatoloji tibbi müəssisələrdə (əməliyyat otaqları istisna olunmaqla), açılan framuqalar vasitəsi ilə havalandırılması hesabına, yaxud təbii sorucu ventilyasiya ilə otaqlarda qeyri-mütəşəkkil hava dəyişdirməyə icazə verilir.

5.10. 3 ədəddən artıq stomatoloji kürsüsü olan kabinetlərdə hava dəyişdirmə havanı mexaniki oyandırmaqla və hava dəyişdirmənin bölünməsi ilə (2 axın və 3 sorma ilə) axın və sorma ventilyasiyası sistemi hesabına təmin edilir. Yaşayış binalarında yerləşən tibbi təşkilatlara məxsus yerlərdə ventilyasiya sistemi, yaşayış binalarına və yaşayış yerlərinə olan sanitar-epidemioloji tələblərə uyğun, yaşayış binasından ayrı olmalıdır.

5.11. Avtonom ventilyasiya sistemləri aşağıdakı yerlər üçün nəzərdə tutulmalıdır: əməliyyataqədər otağı olan əməliyyat otaqları, sterilizasiya otağı, rentgen kabinetləri (ayrıca), diş-texniki laboratoriyaların kabinetləri, sanitar qovşaqlar üçün.

5.12. Diş-texniki laboratoriya otaqlarında yerli sormaları və ümumi dəyişdirmə sorma ventilyasiyasını, laboratoriya otağının hüdudunda, yaxud ventilyasiya kamerasının otağında bir

sorma sistemində birləşdirməyə icazə verilir. Laboratoriya otaqları və stomatoloji tibbi təşkilatların digər otaqları üçün ümumi olan ümumidəyişdirmə axın ventilyasiyasının quraşdırılmasına icazə verilir, müvafiq halda laboratoriya otağında gələn havanın verilməsini ventilyasiya kamerasından keçən sərbəst havadaşıyıcı vasitəsi ilə və onun içində ventilyasiya kamerası hüdudunda əks klapan quraşdırmaqla nəzərdə tutmaq lazımdır.

5.13. Avtonom ventilyasiya kanalları olmayan stomatoloji kabinetlərdə havanın zərərli kimyəvi maddələrdən və qoxulardan təmizlənməsini təmin edən qurğular vasitəsi ilə işlənmiş havanın sorma ventilyasiyasının ümumi dəyişdirici sistemindən binanın xarici divarına çıxarılmasına icazə verilir (fotokatalitik filtrlər və s.)

5.14. Tərkibinə bu avadanlıqdan çıxarılan havanın təmizlənməsi üçün seksiyaların daxil olduğu diş-texniki laboratoriyaların texnoloji avadanlığı və eləcə də qapalı dövrə avadanlığı əlavə yerli sorucular tələb etmir.

5.15. Diş-texniki laboratoriyalarda layihənin texnoloji hissəsindən asılı olmayaraq diş texniklərinin iş gördüyü yerlərdən, cilalama mühərrikklərindən, sobanın üzərində tökmə emalatxanasında, lehimləmə yerində, qızdırıcı cihazların üzərində və polimerləşdirmədəki iş görülən massa üzərində sorucu nasoslar nəzərdə tutulur.

5.16. İşlərin yerinə yetirildiyi zərərli maddələrin ayrılması ilə müşaiyət olunmayan (misal üçün: saxsı kütlənin vurulması və bişirilməsi, yonma və digər işlər) 1, yaxud 2 yerlik diş-texniki laboratoriyaları yaşayış və ictimai binalarda yerləşdirməyə icazə verilir. Dama, yaxud işıq üçün oyuğu olmayan xarici divara çıxışı olan avtonom ventilyasiya kanalı vasitəsi ilə framuqalarla havalandırma yolu ilə, yaxud iki qat havadəyişdiricisi olan təbii sorma ventilyasiyası yolu ilə otaqlarda havanı qeyri-mütəşəkkil şəkildə dəyişdirməyə icazə verilir.

5.17. Rentgenoloji avadanlıqla təchiz edilmiş kabinetlərdə (radiovizioqraflar daxil olmaqla) ventilyasiyaya və hava dəyişdiricinin bölünməsinə qoyulan tələblər müəyyənləşdirilmiş qaydada razılaşdırılmış layihə sənədlərinin texnoloji hissəsi üzrə yerinə yetirilir.

5.18. Aseptik şərtlərin tələbləri qoyulan yerlərdə havadaşıyıcıların, boru kəmərlərinin, armaturanın gizli çəkilməsinə nəzərdə tutulur.

5.19. Məcburi ventilyasiya sistemlərinin mövcud olmasından asılı olmayaraq əməliyyat otaqları istisna olunmaqla bütün kabinet və yerlərdə asanlıqla açılan framuqaların olması nəzərdə tutulmalıdır.

5.20. Otaqlarda hava mühitinin normalaşdırılmış mikroəkmə göstəricilərinə riayət edilməlidir.

5.21. Ventilyasiya sistemlərinə və havanın kondisiyalaşdırılmasına qulluq və profilaktik təmir məsul şəxs tərəfindən, yaxud xüsusiləşdirilmiş təşkilatla olan müqavilə əsasında həyata keçirilir.

5.22. Ventilyasiya sistemində meydana gələn nasazlıqların və qüsurların aradan qaldırılması təxirəsalınmadan həyata keçirilməlidir.

## 6. Təbii və süni işıqlandırmaya tələblər

6.1. Diş-texniki laboratoriyaların bütün stomatoloji kabinet və yerlərdə (daimi iş yerləri) təbii işıqlandırma olmalıdırlar.

6.2. Yenidən yaradılan stomatoloji tibbi təşkilatlarda stomatoloji kabinetlərin pəncərələrini imkan daxilində iş yerlərində birbaşa günəş şüalarının düşməsi və yay vaxtında otağın, xüsusi ilə də Cənub rayonlarında qızması hesabına parlaqlıqların əhəmiyyətli dəyişmələrdən yayınmaq üçün şimal istiqamətində yönəltmək lazımdır (Ş, ŞŞ, ŞQ).

6.3. Yay vaxtında otaqların qızmasının qarşısını almaq üçün imkan daxilində əsas otaqlar və tökmə diş-texniki laboratoriyalar şimal istiqamətinə yönəldilməlidir.

6.4. Pəncərələri 6.2 və 6.3 bəndlərində göstərilənlərə uyğun olmayan səmtləşdirilmiş mövcud stomatoloji tibb təşkilatlarında günəşdən qoruyucu qurğulardan istifadə etmək lazımdır (kozeroqlar, günəşdən qoruyucu təbəqələr, jalüzlər və s.) Əməliyyat və cərrahiyə kabinetlərində jalüz tipli günəşdən qoruyucu vasitələr pəncərə çərçivələri arasında yerləşdirilir.

6.5. Daimi iş yerlərində təbii işıqlandırma əmsalı bütün stomatoloji kabinetlərdə və diş-texniki laboratoriyaların əsas yerlərində qüvvədə olan sanitar normalarla müəyyənləşdirilmiş gigiyenik tələblərə uyğun olmalıdır.

6.7. Birtərəfli təbii işıqlandırmaya malik olan mövcud kabinetlərdə stomatoloji kürsülərin iki sıra ilə quraşdırıldığı zaman iş növbəsi ərzində süni işıqdan istifadə etmək lazımdır, həkimlər isə müntəzəm olaraq öz aralarında iş yerlərini dəyişdirməlidirlər.

6.8. Diş texnikası laboratoriyasında əsas otaqlarda diş texniklərinin masalarının yerləşməsi iş yerlərinin soltərəfli təbii işıqlandırılmasını təmin etməlidir.

6.9. Stomatolji tibbi təşkilatlara məxsus bütün yerlər, lüminessent lampalar, yaxud közərmə lampaları ilə yerinə yetirilmiş ümumi süni işıqlandırmaya malik olmalıdır.

6.10. Diş texnikası laboratoriyasının stomatoloji kabinetlərində və əsas yerlərində ümumi lüminessent işıqlandırmaüçün rəngötürülməni dəyişməyən işıq saçma spektrli lampalar tövsiyə edilir.

6.11. Ümumi işıqlandırma çıraqları elə bir baxımdan yerləşdirilməlidir ki, işləyən həkimin görüş dairəsinə düşməsin.

6.12. Ümumi süni işıqlandırma ilə yaradılan iş səthlərinin tövsiyə edilən səviyyələri cədvəl 3-də verilmişdir.

**Cədvəl 3**
**İş səthlərinin işıqlandırılma səviyyələri**

| Yerlərin adı | Çıraqlarla ümumi işıqlandırma səviyyələri | |
|---|---|---|
| | Lüminessent | Gözərmə |
| Əməliyyat otaqları, stomatoloji kabinetlər, diş texniklərinin kabinetləri, gips otaqları, polimerləşdirmələr | 500 | 200 |
| Fizioterapiya kabinetləri | 200 | 100 |
| Rentgenoloji kabinetlər | 50 | 50 |
| Müvəqqəti durma otağı | 100 | 50 |
| Sterilizasiya-avtoklav otağı | 200 | 100 |
| Dezinfeksiya vasitələrinin saxlanılma otaqları, sanitar qovşaqlar | 50 | 50 |

6.13. Stomatoloji kabinetlər, diştexnikası laboratoriyasının əsas və cilalama otaqları, ümumi otaqdan başqa aşağıdakı şəkildə yerli işıqlandırmaya da malik olmalıdırlar:
- stomatoloji qurğularda stomatoloji çıraqlar;
- cərrahın hər iş yeri üçün xüsusi reflektorlar (yaxşı olardı ki kölgəsiz).
- əməliyyat otaqlarında kölgəsiz reflektorlar;
- diş texnikinin hər iş yerində əsas və cilalama yerlərində çıraqlar;

6.14. Yerli mənbələrdən işıqlandırma səviyyəsi ümumi işıqlandırma səviyyəsindən 10 dəfədən artıq olmamalıdır.

6.15. Yerli və ümumi işıqlandırma çıraqları onların nəmli təmizlənməsini və işçi heyətin görmə üzvlərini çıraqların gözqamaşdırıcı təsirindən qoruyan müvafiq mühafizə armaturuna malik olmalıdırlar.

## 7. Rentgen aparatlarının və kabinetlərinin yerləşdirilməsi və istismarı zamanı radiasiya təhlükəsizliyi

### 7.1. Stomatoloji müəssisələrdə rentgen aparatlarının yerləşdirilməsinə ümumi tələblər

7.1.1. Rentgen aparatlarının yerləşdirilməsinə və istismarına olan əsas tələblər radiasiya mühafizəsinin əsas meyarlarını, rentgen avadanlığına və işçi heyətinə qoyulan tələbləri, rentgen aparatlarının yerləşdirilməsinə və onların istismarına olan əsas tələbləri təyin edən, qüvvədə olan sanitariya qaydaların müddəalarına uyğun olmalıdır. Bu Sanitariya qaydaları stomatoloji müəssisələrdə rentgen aparatlarının yerləşdirilməsinə və onların istismarına olan tələbləri ətraflı göstərir. Rentgenoloji müayinələr keçirən zaman müəssisənin radiasiya-gigiyena pasportunda və hər illik dövlət statistik hesabat formalarında əksini tapmalı olan pasientlərin və işçi heyətinin şüalanma dozasının uçotu və qeydiyyatı təmin edilməlidir.

Rentgenoloji müayinələrin aparılması üçün ionlaşdırıcı şüa mənbəyi ilə fəaliyyəti həyata keçirmək üçün lisenziya rəsmiləşdirilməlidir.

7.1.2. İonlaşdırıcı şüa mənbələri ilə fəaliyyətin təşkili mərhələsində rentgenoloji müayinənin həyata keçiriləcəyi yerlərin seçimi həyata keçirilir: quraşdırılmış rentgen aparatı ilə ya ayrıca rentgen kabinetində, ya da stomatoloji kabinetdə. Bu mərhələdə həmçinin rentgen aparatlarının sayı və növü təyin edilir, onları yerləşdirmək üçün sahələr və otaqların sayı, eləcə də lazımi əlavə şərait (işıqlandırma, ventilyasiya, elektriktəchizatı, isitmə, kanalizasiya və s.) təyin edilir. Rentgen aparatının yerləşdirilməsinin seçilmiş sxemi (ayrıca rentgen kabinetində, yaxud stomatoloji kabinetdə) layihələşdirmə üçün texniki tapşırıq şəklində rəsmiləşdirilir.

**7.2. Ayrıca rentgen kabinetində rentgen aparatlarının yerləşdirilmə xüsusiyyətləri**

7.2.1. Rentgen kabinetlərində rentgen aparatlarının yerləşdirilməsi layihə əsasında həyata keçirilir. Layihənin işlənib-hazırlanması müvafiq fəaliyyət növünə lisenziyası olan layihə təşkilatı tərəfindən sifarişçinin texniki tapşırığı əsasında həyata keçirilir. Layihəyə müəyyənləşdirilmiş qaydada sanitariya-epidemioloji rəy rəsmiləşdirilir. Rentgen kabinetlərinin, aparatların istismara daxil edilməsi və istismarı qurğuya və rentgen kabinetlərinin, aparatların quraşdırılmasına və istismarına olan gigiyenik tələblərə və rentgenoloji müayinələrin keçirilməsinə uyğun həyata keçirilir.

7.2.2. Kabinetin quraşdırılması texniki və normativ sənədləşmənin tələblərinin yerinə yetirilməsini tələb etməlidir.

7.2.3. Kabinetin döşəməsi elektrik cərəyanını keçirməyən natural, yaxud süni materiallardan yerinə yetirilir (linelium, təbii, yaxud süni daş, saxsı plitə və s.)

7.2.4. Rentgen kabinetində havadəyişdiricinin təşkili mikroiqlim göstəricilərinin qüvvədə olan gigiyenik normativlərə uyğun saxlanmasını təmin etməlidir (temperatur, rütubət) və müxtəlif vasitələrlə (axın-sorma ventilyasiyası qurğusu, pəncərə ventilyatorlarının quraşdırılması, kondisiylaşdırma və s.) təmin edilə bilər.

7.2.5. Rentgen kabinetinin işçi heyəti «A» qrupuna daxildir və onlara qüvvədə olan sanitariya qaydalarında nəzərdə tutulmuş xüsusi tələblər şamil edilir

**7.3. Stomatoloji kabinetdə rentgen aparatlarının yerləşdirilmə xüsusiyyətləri**

7.3.1. Stomatoloji müəssisələrin tərkibində yüksək həssazlı təsvir qəbuledicisinə malik (fotolaboratoriyasız) və ya iş məhsuldarlığı 36 saat/həftədən yüksək olmayan dental, pantomoqraf və təsvirlərin rəqəmsal işlənməsini təmin edən rentgen avadanlıqlarının istifadəsi mümkündür. Otaqda bir neçə stomatoloji rentgen aparatı quraşdırılarsa, anod gərginliyinin işə salınması sistemi eyni vaxtda, yalnız bir aparatın istismarını nəzərdə tutmalıdır. Stomatoloji kabinetdə ortopantomoqrafın yerləşdirilməsinə icazə verilmir. Stomatoloji kabinetdə rentgen apparatı, yalnız həmin kabinetin pasientlərinə xidmət etmək üçün nəzərdə tutulmuşdur. Sanitariya normalarına uyğun olan stomatoloji kabinetdə rentgen aparatının yerləşdirilməsi üçün əlavə sahələrə tələb olunmur.

7.3.2. Stomatoloji kabinetdə rentgen aparatının yerləşdirilməsini aşağıdakılardan ibarət layihə materiallarının əsasında keçirmək icazə verilir:

-rentgen aparatının yerləşdirilmə sxemini;

-işçi heyətinin iş yerlərinin, aralıq sahələrin, bitişik sahələrin digər pasiyentlərin yerləşdirilmə yerlərinin (əgər rentgenoloji müayinə keçirilən zaman kabinetdə başqa pasiyentlər ola bilərsə) radiasiyadan mühafizəsinin hesablanmasını.

7.3.3. İşçi heyətinin mühafizəsi məsafə, zaman, ekranlarla (mühafizə şirmasının quraşdırılması), fərdi müdafiə vasitələrini tətbiq etməklə (müdafiə önlükləri, eynəklər və s.) həyata keçirilə bilər.

7.3.4. Pasiyentlərin rentgenoloji müayinəsini aparan işçilər «A» qrup işçi heyətinə aiddirlər. İş yerləri rentgenoloji müayinənin birbaşa aparıldığı stomatoloji kabinetlərdə olan digər işçilər «B» qrup işçi heyətinə aiddirlər. Radiasiya təhlükəsizliyini təmin edilməsi üzrə əsas sanitariya qaydalari ilə müəyyənləşdirilmiş işçi heyətinə şamil edilən tələblər onlara aiddir.

- «A» qrup işçi heyətinin ilkin və dövri tibbi müayinədən keçməsinə dair tibbi komissiyanın rəyi;
- əməkdaşların İŞM (ionlaşdırıcı şüa mənbələri) ilə işə buraxılmasına və onların «A» qrup işçi heyətinə aid edilməsinə dair əmr;

- «A» qrup işçi heyətinin fərdi dozimetrik nəzarət nəticələri üzrə işçi heyətinin fərdi şüalanma dozaları haqqında protokol.

7.3.5. Rentgenoloji müayinələrin keçirilməsi zamanı digər pasiyentlər olan zamanı rentgen şüalama dozası 1,0 мкЗв/ч xətti keçməməlidir. Bu şərti yerinə yetirilməsi məqsədi ilə ehtiyac olanda stasionar tipli və ya yerinidəyişən şüa qoruyucu avadanlıqdan istifadə oluna bilər.

**7.4. Aparatları istismara daxil edən, lisenziyanın rəsmiləşdirilməsi və etibarlıq müddətinin uzadıldığı zaman radiasiya təhlükəsizliyini təmin etmə tələblərinin əsas reallaşdırılma mərhələləri**

7.4.1. Sanitariya qaydalarının tələblərinin reallaşdırılması üçün administrasiya radiasiya təhlükəsizliyi tələblərinə riayət edilməsi və sənədlərin rəsmiləşdirilməsi üzrə tədbirlər kompleksinin keçirilməsini təmin etməlidir:

- ionlaşdırıcı şüalandırma mənbələri ilə fəaliyyət lisenziyası;
- ionlaşdırıcı şüa mənbələri ilə fəaliyyət göstərmək üçün sanitariya-epidemioloji rəy;
- rentgen aparatına sanitariya-epidemioloji rəy, yaxud onun təsdiq edilmiş surəti;
- layihə üçün (rentgen kabineti) sanitariya-epidemioloji rəy, yaxud layihə materialları (rentgen aparatı olan stomatoloji kabinet);
- rentgen aparatı üçün istismar sənədi;
- rentgen kabineti üçün texniki pasport;
- iş yerlərində, iç-içə yerlərdə və bitişik ərazilərdə dozimetrik ölçmə protokolu;
- rentgen aparatının istismar parametrlərinin müayinə protokolu;
- səyyar və fərdi qoruma vasitələrinin sınaq protokolu;
- torpaqlamanın yoxlanış aktları;
- ventilyasiyanın iş effektliyinin yoxlanış aktları (mexaniki oyandırmaya malik axın-sorma ventilyasiya sistemləri olduqda);
- «A» qrup işçi heyətinin ilkin və dövri tibbi müayinədən keçməsinə dair tibbi komissiyanın rəyi;
- əməkdaşların ionlaşdırıcı şüa mənbəyi ilə işə buraxılmasına dair əmr və onların «A» qrup işçi heyətinə aid edilməsi;
- radiasiya təhlükəsizliyinə görə məsul şəxsə aid əmr;
- pasiyentlərin fərdi şüalanma dərəcəsinin uçotunu təsdiq edən sənədlər;
- radiasiya təhlükəsizliyinin təmin edilməsi üzrə istehsal nəzarətinin proqramı (tibbi təşkilatın ümumi istehsal nəzarət planının bir bölməsi kimi icazə verilir);
- rentgen aparatı ilə işləyən əməkdaşlarda aparatda işləmək qaydalarının öyrənilməsini təsdiq edən sənədlərin olması;
- əmək mühafizəsi və radiasiya təhlükəsizliyi, radiasiya qəzalarının qarşısının alınması və ləğvi üzrə təlimat;
- iş yerində təlimatlandırmanın qeydiyyat jurnalı;
- «A» qrupp personalın fərdi dozimetrik nəzarət nəticələri üzrə işçi heyətinin fərdi şüalanma dozaları haqqında protokol.

**8. Sanitariya–əksepidemik tədbirlər**

**8.1. Dezinfeksiya və sterilizasiya tədbirlərinin təşkilinə və keçirilməsinə qoyulan tələblər**

8.1.1. Dezinfeksiya (dezinfeksiya, dezinseksiya, deratizasiya) və sterilizasiya (sterilizasiyaya qədər təmizləmə, sterilizasiya) tədbirlərinin təşkilinə və keçirilməsinə, eləcə də bu məsələlər üzrə işçi heyətinin öyrədilməsinə görə məsuliyyəti, bu sanitariya qaydaları və digər qüvvədə olan normativ-metodik sənədləri rəhbər tutan stomatoloji müəssisənin rəhbəri daşıyır.

8.1.2. Dezinfeksiya və sterilizasiya tədbirlərini keçirmək üçün stomatoloji müəssisələr müntəzəm olaraq müxtəlif təyinatlı yuyucu və dezinfeksiyaedici maddələrlə, dəri antiseptikləri ilə, tibb təyinatlı məmulatların sterilləşdirilməsi üçün vasitələrlə, eləcə də sterilizasiyaedici qablaşdırıcı materiallarla və nəzarət vasitələri ilə (kimyəvi indikatorlar və s.) təmin edilməlidir.

8.1.3. Xəstələrdə stomatoloji manipulyasiyalar zamanı təkrar istifadə edilən tibb məmulatları aşağıdakılara məruz qalmalıdır:

-dezinfeksiya

-streilizasiyadan öncəki təmizlik

-mikroorqanizmlər tərəfindən ikinci kontaminasiyanı istisna edən şəraitlərdə gələcək saxlama.

Bir dəfə istifadə edilən məmulatlar xəstələrdə stomatoloji manipulyasiyalar zamanı istifadə edildikdən sonra dezinfeksiya və utilizasiya edilməlidirlər. Onların təkrar istifadəsi qadağandır.

8.1.4. Stomatoloji müəssisələrdə dezinfeksiya və sterilizasiya tədbirləri keçirildiyi zaman yalnız Azərbaycan Respublikasında tətbiqinə müəyyən qaydada icazə verilən aşağıda qeyd edilənlərin istifadəsinə yol verlir:

- kimyəvi dezinfeksiya maddələri (dəri antiseptikləri daxil olmaqla dezinfeksiya üçün vasitələr; sterilizasiyadan öncəki təmizlik və sterlizasiya üçün vasitələr);
- dezinfeksiya və sterilizasiya avadanlığı (otaqlarda havanın zərərsizləşdirilməsi üçün bakteriasid şualandırıcılar və digər avadanlıq, dezinfeksiya kameraları, dezinfeksiya qurğuları və yuyucu maşınlar, həmçinin ultrasəs maşınları və sterilizatorlar);
- köməkçi avadanlıq və materiallar(tozlandırıcı qurğular, bakteriasid filtrlər, steril alətlərin saxlanılması üçün UB-şualanma ilə kameralar, emalın keçirilməsi üçün qablar, steriləşdirilmiş qutular və qablaşdırma materialları, kimyəvi və bioloji indikatorlar və s.)

Vasitələrin seçimi zamanı stomatologiyada istifadə edilən konkret dezinfeksiya vasitələrinin təsirinə dair tibb təyinatlı məmulat istehsalçılarının tövsiyələrini nəzərə almaq lazımdır.

8.1.5. Dezinfeksiya vasitələrinin saxlanması etiketlərlə təchiz edilmiş qablarda stellajlar üzərində bunun üçün xüsusi ayrılmış yerlərdə istehsalçının qablarında saxlanılmalıdır.

8.1.6. Müxtəlif obyektlərin emalı üçün sitifadə edilən dezinfeksiya vasitələrinin işçi məhlulları olan ayrı qablar olmalıdır:

-dezinfeksiya, sterilizasiya öncəsi təmizlik və tibb təyinatlı məmulatların sterilizasiyası, həmçinin onların əvvəlcədən təmizlənməsi üçün (fiksasiyaedici keyfiyyətə malik vasitələrin istifadəsi zamanı);

-otaqlarda səthlərin, mebellərin, aparatların, cihazların və avadanlığın dezinfeksiyası üçün;

-təmizləmə materialların zərərsizləşdirilməsi, B və V sinifi tullantılarının zərərsizləşdirilməsi üçün.

Dezinfeksiya vasitələrinin işçi məhlulları olan qablar yaxşı örtülən qapaqlarla təchiz edilməlidir, vasitənin adı, konsentrasiyası, təyinatı, istehsal tarixi, məhlulun son yaralılıq müddəti qeydi ilə aydın yazılar olmalıdır.

8.1.7. Dezinfeksiya vasitələri ilə iş zamanı istifadə üzrə təlimatda qeyd edilən fərdi müdafiə vasitələrinin tədbiqi daxil olmaqla bütün təhlükəsizlik tədbirləri görülməlidir.

8.1.8. Dezinfeksiya, təmizləmə və sterilizasiyanın keyfiyyətinə nəzarəti qüvvədə olan normativ-metodik sənədlərə müvafiq olaraq keçirirlər.

8.1.9. Dezinfeksiya, sterilizasiya öncəsi təmizləmə və sterilizasiyanın keyfiyyətinə nəzarət istehsalat nəzarəti çərçivələrində məsuliyyətli şəxslər tərəfindən, dövlət sanitariya-epidemioloji nəzarəti həyata keçirən idarə və orqanlar tərəfindən keçirilir.

8.1.10. Bütün stomatoloji kabinetlər xəstələrdə manipulyasiya arasında emal üçün lazım olan vaxtı nəzərə almaqla fasiləsiz iş üçün kifayət edən miqdarda tibb texnikası və tib təyinatlı məmulatlarla təmin olunmalıdır: Hər həkim stomatoloqun iş yeri üçün ən azı 6 ucluq (iki ədəd künclü, iki ədəd düz, iki ədəd turbinli), hər baş çəkmədə - instrumentlərdən ibarət fərdi stomatoloji baxış komplekti (lotok, stomatoloji güzgü, diş həkimi pinseti, stomatoloji pinset), pambıq topaları paketi, pinset paketi (hər pasiyent üçün zəruri olan steril alətlərlə iş üçün). Zərurət olduqda dəstin komplektləşməsini tamamlayırlar (stomatoloji düyməli zond, parodontoloji qradulyasiyalı zond, hamarlayıcılar, şpatel, ekskavator və s.).

8.1.11. Steril məmulatlar konkret xəstə üzərində birbaşa manipulyasiyadan əvvəl həkimin stomatoloji masanın üzərinə qoyulur (steril lotok və ya steril salfet üzərinə). Həkim stomatoloji masasının aşağı hissəsində müxtəlif stomatoloji manipulyasiyaların keçirtmək məqsədilə müvafiq cihazların və aparatların yerləşməsi icazə verilir.

8.1.12. Hər xəstə üçün döş salfetləri dəyişilməlidir. Bir dəfəlik salfetlər utilizasiya edilir. Təkrar istifadə edilən salfetlər yuyulmağa verilir.

8.1.13. Ağızı su ilə yaxalamaq üçün birdəfəlik və təkrar istifadə stəkanları hər xəstə üçün fərdi olaraq istifadə olunur.

## 8.2. Otaqların sanitar vəziyyətinə dair tələblər

8.2.1. Otaqların nəm təmizləməsi gündə iki dəfədən az olmayaraq yuyucu və dezinfeksiya vasitələrindən istifadə etməklə çiləmə və/ və ya silmə yolu ilə keçirilir. Pəncərə şüşələrinin yuyulması daxildən 1 dəfədən az olmayaraq və xaricdən 3 ayda bir dəfədən az olmayaraq keçirilir (yaz, yay, payız).

8.2.2. Müalicə zonasında hər xəstədən sonra əşya səthlərinin dezinfeksiyası aparılmalıdır. Bu məqsədlər üçün geniş spektorlu antimikrob təsirə malik və xəstələrin iştirakı ilə tətbiq edilməsinə icazə verilmiş dezinfeksiya vasitələrindən (virusid, bakteriasid, fundosid, tüberkülosid, kandida növü göbələklərə qarşı fəal) istifadə olunur. Dezinfeksiya rejimlərinin seçimi viruslar və ya kandida növü göbələkləri arasında ən davamlı mikroorqanizmlər üzrə aparılır.

8.2.3. Həftədə bir dəfə əməliyyat blokunda, cərrahiyyə kabinetdə, sterilizasiya otağında (avtoklavda) əsaslı təmizlik işləri aparılır. Dezinfeksiya üçün geniş spektorlu antimikrob təsirə malik və xəstələrin iştirakı ilə tətbiq edilməsinə icazə verilmiş dezinfeksiya vasitələrindən (virusid, bateriasid, fundosid, tüberkülosid, kandida növü göbələklərə qarşı fəal) istifadə olunur. Dezinfeksiya rejimlərinin seçimi viruslar və ya kandida növü göbələkləri arasında ən davamlı mikroorqanizmlər üzrə aparılır.

8.2.4. Əsaslı təmizləmənin keçirilməsi qrafiki aylıq olaraq tərtib edilir və rəhbər tərəfindən təsdiq edilir. Qrafikdən kənar əsaslı təmizləmə xarici mühitin mikrob mövcudluğunun epidemioloji göstrəiciləri üzrə qeyriqənaətbəxş nəticələr alındıqda keçirilir.

8.2.5. Əsaslı təmizləmənin keçirilməsi üçün heyət xüsusi geyim və fərdi müdafiə vasitələri, markalanmış təmizləmə inventarı və təmiz parça salfetlərə malik olmalıdır.

8.2.6. Əsaslı təmizləmənin keçirilməsi üçün dezinfeksiya məhlulunu çiləmə yolu ilə və ya iki metrdən az olmayan hündürlükdə (əməliyyat blokunda divarın hündürlüyü boyu) vurmaqla pəncərələr, pəncərəaltları, qapılar, mebellər və avadanlıqlar silinir. Zərərsizləşdirmə müddəti bitdikdən (həyət həmin xüsusi geyimi dəyişməlidir) sonra bütün səthlər içməli suda isladılmış təmiz parça salfetlərlə yuyulur.

8.2.7. İstifadə edilmiş təmizləmə inventarı dezinfeksiya vasitəsi məhlulunda zərərsizləşdirilir, sonra isə suda yaxalanıb və qurudulur. Döşəmə və divarlar üçün təmizləmə inventarı ayrı olmalı, dəqiq markirovkaya malik olmalı və kabinetlər, dəhliz, sanqovşaqlar üçün ayrı tətbiq edilməlidir. Bir dəfəlik salfetlərin istifadəsi mümkün olmadıqda təkrar istifadə salfetləri yuyulmalıdır.

8.2.8. Təmizləmə inventarını xüsusi ayrılmış otaqda və ya iş kabinetlərindən kənarda yerləşən dolablarda saxlamaq lazımdır.

8.2.9. Stomatoloji müəssisələrin otaqlarında havanın zərərsizləşdirilməsi üçün icazə verilmiş avadanlıq və/və ya kimyəvi vasitələrdən istifadə etmək lazımdır.

Emal texnologiyası və havanın zərərsizləşdirilməsi rejimi müvafiq normativ-metodik sənədlərdə və konkret dezinfeksiya avadanlığı və dezinfeksiya vasitələrinin tətbiqi üzrə təlimatda izah edilmişdir.

Havanın tozlanmasını təhlükəsiz səviyyəyə endirilməsi məqsədi ilə aşağıdakı texnologiyaların istifadəsinə yol verilir:

-insanlar olmayanda tətbiq edilən açıq və uyğunlaşmış bakteriasid şualandırıcı və bağlı şualandırıcı, həmçinin insanların iştirakı ilə havanın zərəsizləşdirilməsini aparmağa imkan verən resirkulyatorlar vasitəsilə ultrabənövşəyi şualandırmanın təsiri;

- sonuncu tip üzrə dezinfeksiyanın keçirilməsi və əsaslı təmizliyin keçirilməsi zamanı xüsusi tozlandırıcı aparaturanın köməyi ilə insanlar olmayan zaman dezinfeksiya vasitələri aerozolları ilə təsir;

- sonuncu tip üzrə dezinfeksiyanın keçirilməsi və əsaslı təmizliyin keçirilməsi zamanı insanlar olmadıqda qurğu-ozon qeneratorları vasitəsi ilə ozon təsiri;

- antimikrob filtirlər, həmçinin elektrik filtirlər, habelə fotokaliz və ion küləyi prinsipləri əsasında işləyən filtirlər və s. tətbiqi.

## 8.3. Dezinfeksiya, sterilizasiyadan öncəki təmizləmə və tib texnikası və tibb təyinatlı məmulatların sterilizasiyası

8.3.1. Tib texnikası və tibb təyinatlı məmulatlar tətbiq edildikdən sonra gələcək istifadədən asılı olmayaraq dezinfeksiya edilməlidir (birdəfəlik və təkrar istifadə məmulatları). Dezinfeksiyanı fiziki və kimyəvi üsullarla keçirmək olar. Üsulun seçimi məmulatın xüsusiyətindən və təyinatından asılıdır.

8.3.2. Tibb texnikası və tibbi təyinatlı avadanlıqların və s. dezinfeksiyası üçün geniş spektorlu antimikrob təsirə malik dezinfeksiya məhlullarından (8.2.2 bəndində göstərilmiş antimikrob təsirə malik dezinfeksiya məhlulları) istifadə edilir. Daha davamlı mikroorqanizmlər üzrə dezinfeksiya rejimlərinin seçimi virus və yaxud kandida tipli göbələklər arasında aparılır.

8.3.3 Dezinfeksiya, sterilizasiya öncə təmizlik və kimyəvi tərkib məhsullarının sterilizasiyasının aparılması zamanı tibbi təyinatlı məmulatı kanal və boşluqların doldurulması ilə vasitənin işçi məhluluna batırmaq lazımdır. Ayrılmış məmulatlar ayrı-ayrı batırırlar, kilid hissəli alətləri məhlulda bir neçə işçi hərəkətləri edərək açıq şəkildə isladırlar.

8.3.4. Emalın aparılması üçün qabın və vasitənin məhlulunun həcmi tibbi təyinatlı məmulatın tam batırılmasının təmin edilməsi üçün onun daxilində kifayət qədər olmalıdır. Məhlulun qatının qalınlığı 1 sm az olmamalıdır.

8.3.5. Təmizləmə üsulu ilə dezinfeksiya birbaşa xəstələrlə təmasda olmayan və konstruksiyon xüsusiyyətləri batırmaq üsulunun tətbiqinə icazə vermədiyi tibb texnikası və tibb təyinatlı məmulatlarda tətbiq edilir. Belə məqsədlər üçün aldehid tərkibli vasitələrin istifadəsi tövsiyə edilmir. Hər xəstədən sonra ucluqların təmizliyi aşağıdakı şəkildə yerinə yetirilir: ucluqların kanalını xüsusi cihazların köməyi ilə təmizləyərək su ilə yuyur və havaya verirlər. Ucluq çıxarılır və onun səthini su ilə isladılmış parça salfetlərlə ehtiyatla təmizləyirlər.

8.3.6. Təkrar istifadəli tibbi təyinatlı məmulat dezinfeksiyadan sonra konkret vasitənin istifadəsi üzrə təlimatda qeyd edilən tövsiyələrə müvafiq olaraq dezinfeksiya dərmanların qalıqlarından təmizlənməlidir.

8.3.7. Stomatoloji ölçülər, diş protezləri tədarükünün dezinfeksiyasını xəstələrdə istifadə etdikdən sonra diş texnikına göndərməzdən əvvəl və onların diş texnikası laboratoriyasından alındıqdan sonra birbaşa tətbiq etmədən əvvəl həyata keçirirlər. Dezinfeksiyadan sonra məmulatın dezinfeksiya dərmanlarının qalıqlarından təmizlənməsi üçün su ilə yuyurlar.

8.3.8. Stomatoloji cihazın sorucu hissələrinin zərərsizləşdirilməsi hər iş növbəsi qurtardıqdan sonra yerinə yetirilir. Bu məqsəd üçün götürülmüş dezinfeksiya məhlulu istifadəsinə dair təlimayta uyğun olaraq, sistemin içərisinə doldurulur və zərərsizləşdirmə müddəti gözlənildikdən sonra boşaldılaraq axar su altında yuyulur.

8.3.9. Cilalanmış keçirmələr, karbarundlu daşlar, güzgülər dezinfeksiya, təmizləmə və sterilizasiyaya əsaslanır.

8.3.10. Fizioterapevtik şöbələrdə (kabinetlərdə) çıxarılan diş ətrafı və nöqtə elektrodları, qısadalğalı ultrabənövşəyi şüalandırıcı cihazların tubusları, lazer cihazlarını işıq istiqamətləndiriciləri, darsomval aparatlarının güzgü elektrodları dezinfeksiya məruz qalır. Ağız boşluğunda aplikasiya üçün steril materiallardan istifadə edilir.

8.3.11. Stomatoloji müəssisələrdə üçdən artıq stomatoloji kürsülərin mövcudluğu zamanı sterilizaiya öncə təmizliyi və sterilizasiyanı təmiz və çirkli sahələrin ayrılması və axıcılığa riayət etməklə xüsusi ayrılmış sterilizasiya (avtoklav) yerlərində həyata keçirirlər.

Digər vəziyyətlərdə tibbi təyinatlı məmulatın sterilizasiya öncə təmizlyini və sterilizasiyasını kabinetlərdə yerinə yetirirlər, bunun üçün orada lazımı avadanlıq qurulmalıdır.

8.3.12. Sterilizasiyadan öncə təmizliyin keyfiyyəti konkret vasitələrin istifadəsi üzrə fəaliyyətdə olan metodik sənəd və təlimatlara müvafiq olaraq qanın qalıq miqdarının mövcudluğuna dair azopiram və ya amidopirin yoxlaması, habelə yuyucu vasitələrin qələvi komponentlərin qalıq miqdarına dair fenolftalein yoxlaması yolu ilə qiymətləndirilir.

8.3.13. Sterilizasiyaönü təmizlənmənin keyfiyyətinin yoxlanması hər gün aparılır. Yoxlamaya məruz qalmalıdır: sterilizasiya yerində - bir növbə ərzində işlənmiş hər məmulatdan bir faiz, mərkəzləşmədən emal zamanı eyni zamanda emal edilmiş məmulatların 1 faizi, lakin 3 ədəddən az olmayaraq. Nəzarət nəticələri jurnalda qeyd edilir.

8.3.14. Yara səthi, qan və yaxud infeksiya aparatları ilə təmasda olan bütün alət və məmulatlar, həmçinin istifadə prosesində selikli qişa ilə təmasda olan tibbi alətlərin müxtəlif növləri sterilizasiya edilir:

-stomatoloji alətlər: pinset, zond, qaşıq, ekskavator, ştopfer, sığallayıcı alət, koronka çıxarıcı, skeller, stomatoloji güzgülər, endodontik alətlər, bor, ştift, stomatologi disklər, frezer,

ayırıcı metalik lövhəciklər, ölçüləri çıxarmaq üçün qaşıqlar, diş kanalının plomblanması üçün alətlər, karpul şprislər, müxtəlif növ maşa və kusaçkalar ortodont kabinet üçün;

-cərrahi alətlər: stomatoloji maşalar, kyuretaj qaşıqlar, elevator, iskənə, implantologiya üçün alətlər, cərrah bıçağı, kornsanq, bıçaq, sıxma, cərrahi sığallayıcılar, tikiş iynəsi.

8.3.15. Stomatologiyada istifadə edilən tibbi təyinatlı məmulatın sterilizasyasını fəaliyyətdə olan sənədlərə müvafiq olaraq fiziki və kimyəvi metodların istifadəsi ilə həyata keçirirlər. Oxşar sterilizasiya metodunun seçimi sterilizasiya edilən məmulatların xüsusiyyətindən asılıdır. Sterilizasiyanı konkret vasitənin istifadəsi üzrə təlimatda qeyd edilən rejimlər üzrə yerinə yetirirlər. Hava metodu ilə sterilizasiya zamanı laboratoriyaya aid olan avadanlığın istifadəsi qadağandır.

8.3.16. Sonluqlar, o cümlədən ultrasəs sonluqlar, başlıqlar, plastmas quyruqlu endodontik alətlər yalnız buxar üsulu ilə sterilizə edilir.

8.3.17. Şüşə perlin sterilizatorlarda müxtəlif növ borların sterilizasiya olunmasına yol verilir və digər kiçik ölçülü alətlərin tam enməsi zamanı sterilizasiya olunmasına yol verilir, sterilizasiya isidilmiş şüşə kürələrdə həyata keçirilir. Onların işlək hissələrinin sterilizasiyası məqsədilə daha böyük stomatologiya alətlərinin sterilizasiya olunması üçün bu üsuldan istifadə etmək tövsiyə edilmir.

8.3.18. İnfraqırmızı üsulla metaldan hazırlanmış vasitələr sterilizasiya olunur: stomatoloji millər, stomatoloji kiçik cərrahiyyə əməliyyatları üçün alətlər, bərk tökümlü borlar, almaz başlıq və disklər, drilborular, kanal doldurucular v.s.

8.3.19.Kimyəvi vasitələrin məhlulunu tətbiq edərək sterilizasiyanın kimyəvi üsulu konstruksiyasında termomobil materiallar istifadə edilmiş alətlərin və vəsaitlərin sterilizasiyası zamanı yol verilir. Bu sterilizasiya üsulu digər sterilizasiya üsullarının istifadəsi qeyri mümkün olduqda istifadə edilir.

Kimyəvi sterilizasiya məqsədilə aldehid məhlullar istifadə edilir, və ya tərkibində oksigen olan məhlullardan istifadə edilir və ya tərkibində bir neçə xlor tərkibi olan məhlullar istifadə edilir, onlar sporosid təsirə malikdirlər.

Xüsusilə çox istifadə edilən işlək məhlulların qatışmasından qaçınmaq üçün onlara salınan vasitələr quru olmalıdırlar.

Kimyəvi vasitələr vasitəsilə sterilizasiya zamanı bütün manupulyasiyalar ciddi şəkildə aseptika qaydalarına riayət etməklə həyata keçirilməlidir; steril qablar steril içməli su vasitəsilə yuyulma zamanı istifadə edilir. Vasitələr tövsiyələrə müvafiq olaraq yuyulur, bu tövsiyələr konkret vasitənin tətbiq edilməsi üzrə göstərişlərdə əks edilmişdir.

8.3.20. Buxar, hava, qaz və ya plazma metodlarından istifadə edərkən vasitələr qablaşdırılmış şəkildə sterilizasiya olunur, bu zaman steril qablaşdırma təkistifadəli materiallar və ya müəyyən edilmiş qaydada konkret sterilizasiya üsulu ilə əlaqədar olaraq çoxistifadəli konteynerlər (filterli sterilizasiya qutuları) istifadə edilir.

Qablaşdırılmış şəkildə sterilizasiya edilmiş məmulatların saxlanması dolablarda və işlək masalarda həyata keçirilir. Saxlama müddətləri qablaşdırmada qeyd edilir və qablaşdırma materialının növünə əsasən müəyyən edilir və bu zaman tətbiq təlimatı nəzərə alınır.

8.3.21. Mərkəzləşdirilməmiş şəkildə zərərsizləşdirilmə zamanı tibbi vasitələrin qablaşdırılmadan sterilizasiyasına aşağıdakı hallarda icazə verilir:

-konstruksiyasında termolabil materiallar istifadə edilmiş məhsulların sterilizasiyası zamanı kimyəvi məhlullar istifadə edildikdə;

-portativ sterilizatorlarda termik üsullarla stamotoloji metalik alətlərin sterilizasiyası zamanı (şüşə perlen, infro qırmızı, hava, buxar).

Qablaşdırılmamış şəkildə sterilizasiya olunmuş bütün məmulatları təyinatı üzrə qısa bir müddət ərzində istifadə etmək daha məqsədəuyğundur. Onların kabinetdən kabinetə daşınması qadağan edilir. Zərurət olduqda termik üsulların biri vasitəsilə qablaşdırılmamış şəkildə sterilizasiya olunmuş alətlər sterilizasiya sona yetdikdən sonra müddəti boyunca icazə verilən bakterisid (ultrabənövşəyi lampalarla təchiz edilmiş) kameralarda saxlanılmasına yol verilir. Saxlama müddəti avadanlığın istismar kitabçasında qeyd edilmişdir. Belə kameralar olmadıqda altı saatdan çox olmayaraq steril masada saxlanılır. Sterilizasiya qutularında pasterilizə edilmiş tibbi təyinatlı məmulatlar onların açılmasından sonra 6 saatdan gec olmayaraq istifadə edilməlidir.

8.3.22.Ultrabənövşəyi lampalarla təchiz edilmiş bakterisid kameralar istismar göstərişlərinə müvafiq olaraq mikroorqanizmlərlə ikincili kontaminasiya riskinin aşağı salınması məqsədilə yalnız saxlanma məqsədilə istifadə edilə bilər. Belə avadanlığın alətlərin dezinfeksiyası və ya sterilizasiyası üçün istifadə edilməsi qadağan edilmişdir.

8.3.23. Hava üsulu ilə qablaşdırılmamış şəkildə məmulatların sterilizasiyası zamanı sterilizə edilmiş məmulatların hava sterilizatorlarında saxlanılmasına və sterilizasiyadan sonra onların növbəti gündə istifadəsinə yol verilmir.

8.3.24. Kimyəvi məhlulla sterilizasiya zamanı sterilizasiya edilmiş məmulatların steril su ilə yuyulması təyinatdan dərhal sonra həyata keçirilməlidir və onları saxlanma üçün filterli sterilizasiya qutusuna yerləşdirirlər. Belə yerləşdirmə 3 sutkadan çox olmamalıdır.

8.3.25. Steril masanın örtülməsi üzrə bütün manipulyasiyalar steril xalatda, maskada və əlcəklərdə həyata keçirilir, bu zaman steril mələfədən istifadə edilir. Bu zaman mütləq şəkildə steril masanın salınması tarixi və vaxtı qeyd edilməlidir. Steril masa 6 saat müddətinə salınır. Bu müddət ərzində steril masadan istifadə edilməyən material və alətlər təkrar sterilizasiyaya göndərilir.

8.3.26. Sterilizasiyadan sonra saxlanma müddəti bitmiş tibbi təyinatlı sterilizə edilmiş məmulatların istifadəsinə yol verilmir.

8.3.27. Tibbi təyinatlı alətlərin sterilizasiya uçotu jurnalda aparılır.

**8.4. Sterilizasiyaya nəzarət**

8.4.1. Sterilizasiyaya nəzarətə sterilizatorların fəaliyyətinə nəzarəti, sterilizasiya rejimi parametrləinin göstəricilərinin yoxlanması və onun səmərəliliyinin qiymətləndirilməsi daxil edilir. Sterilizasiya fəaliyyətinə nəzarət təlimat/metodiki sənədlərə müvafiq olaraq (nəzarət-göstərici cihazları) kimyəvi (kimyəvi indikatorların istifadə edilməsi), fiziki, bakterioloji üsullarla həyata keçirilir.

Fizki və kimyəvi üsullarla sterilizatorların fəaliyyətinə nəzarət hər bir sterilizasiya siklində həyata keçirlir.

8.4.2.Sterilizatorlar quraşdırıldıqdan sonra (təmir) bakterioloji nəzarətdən keçirilməlidir, həmçinin belə nəzarət ildə iki dəfədən az olmayaraq istismar gedişində istifadə edilməlidir.

8.4.3.Sterilizatorların texniki qulluğu, zəmanəti və cari təmiri müqavilələrə müvafiq olaraq servis xidmətlərinin mütəxəssisləri tərəfindən həyata keçirilir.

**8.5.Əllərin işlənməsi qaydaları**

8.5.1.Həyata keçirilən tibbi manipulyasiyadan və əl dərisinin mikrob kontaminasiyasının tələb edilən səviyyəsindən asılı olaraq tibbi personalın və cərrahların gigiyenik işlənməsi həyata keçirlir.

8.5.2.Səmərəli yuyunmanın və əllərin dezinfeksiyasına nail olmaq üçün aşağıdakı şərtlərə əməl etmək lazımdır:

dırnaqların qısa şəkildə kəsilməsi, dırnaqların laklı olmaması, süni dırnaqların olmaması, əllərdə üzüklərin, həlqələrin və digər zərgər məmulatlarının olmaması. Cərrah əllərinin işlənməsindən öncə saatı, bilərzikləri v.s-ləri çıxarmaq lazımdır. Əllərin qurudulması üçün təkistifadəli salfetka və dəsmallardan istifadə edilir, cərrahların əllərinin işlənməsi zamanı-yalnız steril parçalar istifadə edilir.

8.5.3.Dəri antiseptiklərinin, yuyucu vasitələrin və əl dərisinə qulluq vasitələrinin seçilməsi zamanı dərinin dözümlülük xassəsi, dəri örtüyünün rənglənməsi intensivliyi, örtük nəzərə alınmalıdır.

8.5.4.Tibbi heyyət əllərin effektiv yuyulması və dezinfeksiya edilməsi üçün yetəri qədər vəsaitlə təmin edilməlidir, bu zaman kontakt dermatitlərin ortaya çıxması riskinin aşağı salınması üçün əllərə qulluq vasitələri də (kremlər, losyonlar, balzamlar v.s) təmin edilməlidir.

**8.6. Əllərin gigiyenik təmizlənməsi**

8.6.1. Əllərin gigiyenik təmizlənməsi iki üsulu nəzərdə tutur:

- çirkləri təmizləmək və mikroorqanizmlərin miqdarını azaltmaq üçün əllərin sabun və su ilə (əllərin gigiyenik yuyulması) yuyulması;

- mikroorqanizmlərin təhlükəsiz səviyyəyə qədər azalması üçün əllərin dəri antiseptiki ilə təmizlənməsi (əllərin gigiyenik təmizlənməsi).

Əllərin təmizlənməsi üsulunun seçilməsi çirklənmə dərəcəsindən və xarakterindən asılıdır.

8.6.2. Əlləri yumaq üçün dozatorun (dispenser) köməyi ilə maye sabundan, yaxud bərk (kərpiçəşilli), konstruksiyası sabunun islanmasına yol verməyən maqnit, yaxud başqa sabun qablarına yerləşən sabundan istifadə edilir.

Əllər birdəfəlik istifadə üçün olan fərdi məhraba (salfetka) ilə silinir.

8.6.3. Əlləri zərərsizləşdirmək üçün tərkibində spirt və başqa istifadə üçün icazə verilmiş antiseptiklər olan istifadə edilir.

8.6.4. Əllərin antiseptiklə gigiyenik təmizlənməsi aşağıdakı hallarda həyata keçirmək lazımdır:

- pasiyentlə bilavasitə təmasdan qabaq;

- pasiyentin zədələnməmiş dərisi ilə təmasdan sonra (misal üçün nəbzi, yaxud arterial təzyiqi ölçən zaman);

- orqanizmin sekreti, yaxud ekskretləri, selikli qişalarla, sarğılarla təmasdan sonra;

- bədən nahiyələrinin kontaminirləşdirilmiş mikroorqanizmləri ilə təmasdan sonra pasiyentə qulluqla bağlı müxtəlif manipuliyasiyaları yeninə yetirən zaman;

- pasiyentlə bilavasitə təmasdan sonra;

- irinli iltihabi proseslər olan (periodonitlər, qanqrenoz pulpitlər), parodontal ciblərin kyuretajı, parodontal absseslərin yarılmasından sonra pasiyentlərin müalicəsindən sonra, çirklənmiş səthlər və avadanlıqlarla hər bir təmasdan sonra;

- əlcəkləri çıxarandan sonra axar su altında əlləri yuyana qədər.

8.6.5. Əllərin antiseptiklə gigiyenik təmizlənməsi (qabaqcadan onları yumadan) onun əl daraqlarının dərisinə istifadə etmə təlimatı ilə tövsiyə edilən miqdarda sürtülməsi yolu ilə, barmaqların uclarının, dırnaqların ətrafındakı, barmaqlar arasındakı dərinin təmizlənməsinə xüsusi diqqət yetirməklə keçirilir. Əllərin effektiv zərərləşdirilməsinin mühüm şərtlərindən biri təmizlənmə üçün tövsiyə edilən vaxt ərzində onların nəm vəziyyətdə saxlanılmasıdır.

8.6.6. Dozatordan istifadə edən zaman yeni antiseptik dozasını (yaxud sabun) onu dezinfeksiya etdikdən, su ilə yuduqdan və quruladıqdan sonra dozatora tökürlər.

8.6.7. Dozatorlar və ondan istifadə etmə imkanı olmadıqda fərdi qablarda (kiçik həcmli flakonlar) antiseptiklərdən (o cümlədən, gellərdən) istifadə edilir və istifadədən sonra utilizasiya edilirlər.

8.6.8. Əllər qan, tüpürcək və başqa bioloji mayelərlə çirkləndikdə, aşağıdakıları etmək lazımdır:

- çirkləri antiseptiklə isladılmış tampon, yaxud əlsilənlə silmək;

- əlləri iki dəfə antiseptiklə təmizləmək;

- əlləri sabun və suyla yumaq;

-əlləri birdəfəlik istifadə üçün olan məhraba ilə səliqə ilə qurutmaq;

- antiseptiklə təmizləmək.

8.6.9. Əlcəkləri pasiyentin yanında istənilən manipulyasiyadan qabaq taxmaq lazımdır.

Əlcəklər çıxarıldıqdan sonra əllər gigiyenik təmizlənir.

Hər bir pasiyentdən sonra əlcəkləri hökmən dəyişdirmək lazımdır. Əlcəklərdən təkrar istifadə etmək qadağan edilir.

**8.7. Cərrahların əllərinin təmizlənməsi**

8.7.1. Dəri örtüklərinin və selikli qişaların bütövlüyünün pozulması ilə bağlı olan operativ müdaxilə və digər manipuliyasiyaların keçirilməsində iştirak edən cərrahların və digər mütəxəssislərin əllərinin təmizlənməsi iki mərhələdə aparılır:

**I mərhələ** – iki dəqiqə ərzində əllərin sabun və su ilə yuyulması, sonra isə steril məhraba ilə qurulanması (əl silənlə);

**II mərhələ** – əllərin, biləklərin və bazu önünün antiseptiklə təmizlənməsi.

8.7.2. Təmizləmə üçün lazım olan antiseptikin miqdarı, təmizləmənin sayı və onun davamlığı konkret vasitədən istifadə edilməsi üzrə metodik göstərişlərdə/təlimatlarda təyin edilir.

Əllərin effektiv zərərsizləşdirilməsinin mühüm şərti onların tövsiyə edilən təmizlənmə müddəti ərzində nəm vəziyyətdə saxlanılmasıdır.

Steril əlcəklər, antiseptik əlin dərisində tam quruyandan sonra dərhal taxılır.

**9. Əmək gigiyenası və işçi heyətinin şəxsi gigiyena qaydaları**

9.1. Stomatoloji müəssisə rəhbərliyi tibb işçi heyətinin təhlükəsiz əmək şəraitini təmin etməlidir. İşə daxil olarkən işçi heyətinin ilkin və müntəzəm tibbi müayinələri, müəyyənləşdirilmiş qaydada bu cür müayinələrin keçirilməsi üçün lisenziyası olan tibbi müəssisənin bazasında həyata keçirilir. Stomatoloji müəssisənin işçi heyəti epidemioloji göstərişlər üzrə immunlaşdırılmalıdır.

9.2. Tibb işçi heyəti dəyişək paltar dəsti ilə təmin edilməlidir: xalat və tibbi kostyumlar, papaqlar, maskalar, dəyişək ayaqqabısı. Dəyişək paltarının saxlanılması şəxsi və paltarlardan ayrı – fərdi ikibölməli şkaflarda qəbul kabinetlərindən kənarda (qarderob otağı, işçi heyəti üçün otaqlar, inzibati yerlər, divar şkafları) saxlanılır. İşçi heyətinin üst paltarı qarderobda, yaxud istehsaldan kənar sahələrdəki şkaflarda saxlanılır.

9.3. Sanitar paltarının dəyişdirilməsi (xalatlar, iş kostyumları, papaqlar) qanla çirkləndikdə təxirəsalınmadan - hər gün kabinetin profilindən asılı olmayaraq həyata keçirilir. Dəstlərin sayı hər bir işləyən üçün ən azı 3 ədəd olmalıdır.

9.4. Sanitar paltarının yuyulması mərkəzləşdirilmiş şəkildə camaşırxanalarla müqavilə üzrə, yaxud tibb müəssisənin özünün camaşırxanasında həyata keçirilir. Sanitar paltarının evdə yuyulması qadağan edilir.

9.5. Əməliyyatda iştirak edən həkimlər və digər şəxslər əməliyyat blokunda steril xalatlarda, əlcəklərdə və maskalarda işləməlidirlər.

9.6. Parenteral infeksiyaların yayılmasının profilaktikası məqsədi ilə pasiyentə potensial hemotəmas infeksiya mənbəyi kimi münasibətdə epidemioloji işçi heyətinin sayıqlığını formalaşdırmaq lazımdır.

Tibbi manipulyasiyaları keçirən zaman işçi heyəti fərdi mühafizə tədbirlərinə ciddi riayət etməlidir:

- tibbi xalatlarda (kostyumlarda), papaqlarda, eynəklərdə (sipərlərdə), maskalarda, dəyişək ayaqqabılarda, əlcəklərdə işləmək;
- əllərin üzərində mikrotravmaların, sıyrıntıların, cırmaq yaralarının olduğu təqdirdə, zədələnmiş yerlərə leykoplastır yapışdırmaq;
- əllərin təmizlənmə qaydalarına riayət etmək (bax 8.5-8.7 bölmələr).

9.7. Xəstəni müalicə edən zaman qeydlər aparmaq, telefon dəstəyinə toxunmaq və s. olmaz. İş yerində qida qəbul etmək və kosmetikadan istifadə etmək qadağandır.

9.8. Dəri örtükləri zədələndikdə (təsadüfi iynə batma, kəsik və s.) dərhal əlcəkləri dezinfeksiyaedici məhlullarla təmizləmək, onları çıxarmaq, əlləri sabunla yumaq, zədələnmiş səthdən qanı sıxıb çıxarmaq, dərini 70° spirtlə, sonra isə yodla təmizləmək lazımdır. Pasiyentin bioloji mayesi ağız-boğaz seliklisinə düşdükdə ağız və boğazı dərhal 70% etil spirti ilə yaxalamaq lazımdır. Bioloji maye gözə düşdükdə burunu su, yaxud 1:10000 nisbətində marqanesturşu kalium məhlulu ilə yumaq lazımdır.

9.9. HİV infeksiya ilə yoluxma riski yüksək olduqda (dərin yara, HİV-ə yoluxmuş pasiyentlərdən gözlə görünən qanın zədələnmiş dəriyə və selikli qişalara düşməsi) kimyəvi profilaktika təyin etmək üçün Respublika QİÇS-lə Mübarizə Mərkəzinə müraciət olunmalıdır.

**Əlavə 1**

**Stomatoloji müəssisələrə məxsus yerlərin tərkibi, toplusu və tövsiyə edilən sahələri****

| **Otaqların adı** | **Minimal sahəsi** | **Qeyd** |
|---|---|---|
| Qeydiyyat şöbəsi, üst paltarı olan qarderob otağı və gözləmə otağı olan vestibül | 10 | Hər bir böyük pasiyent üçün 1.2 $m^2$. Hər bir uşaq üçün valideynlərdən birinin olması nəzərə alınaraq -2 $m^2$ |
| Həkimin otağı (stomatoloq, cərrah, ortoped, ortodont, uşaq stomatoloqu) | 14 | Hər bir əlavə stomatoloji kürsuyə 10 $m^2$ artırmaqla (bor qurğusu olmayan |

| | | |
|---|---|---|
| Ümumtəhsil müəssisələrində stomatoloji həkim kabineti<br><br>Ağızın gigiyenası kabineti | 12<br><br>10 | əlavə stomatoloji kürsü üçün 7 $m^2$)<br><br>Müalicə yardımının məhdud həcmini nəzərə almaqla |
| Əməliyyat bloku:<br>Əməliyyat önü otaq<br><br>Əməliyyat otağı<br><br>Əməliyyatdan sonra pasiyentin müvəqqəti qalma otağı | <br>8<br><br>24<br><br>10 | Mərkəzi sterilizasiya otağı olmadıqda, tibbi alətlərin sterilizasiyasının əməliyyatönü otaqda aparıldığı hallarda əməliyyat önü otağın sahəsi minimum 2 $m^2$ böyüyür |
| Nişanə surətlərini çıxarmaq üçün bir ədəd dental rentgen aparatına rentgen kabineti | 6 <*> | Bu qaydaların 7.2.1 bəndinə riayət etdikdə sahənin azaldılması mümkündür |
| Sterilizasiya otağı | 8 | Qurulacaq avadanlığın həcmi nəzərə alınmaqla minimum 8 $m^2$ götürülür |
| Diş-texniki laboratoriyası | 7 | Bir texnik üçün 4 $m^2$, lakin bir otaqda 15 texnikdən artıq olmayaraq |
| Diş texniklərinin otaqları | 12 | Bir işçiyə 6 $m^2$, amma 12 $m^2$ az olmayaraq |
| Materialların saxlanması otağı | 10 | |
| Protezlərin və modellərin saxlanması otağı | 8 | |
| Keramika və metallokeramika laboratoriyası | 12 | Bir işçiyə 6 $m^2$, amma 12 $m^2$ az olmayaraq |
| Metallokeramikanın yandırılması otağı | | Bir sobaya 12 $m^2$, hər digərinə isə 6 $m^2$ |
| Qiymətli materiallardan protezlərin istehsalı sahəsi | 12 | Bir texnika 4 $m^2$, amma 12 $m^2$ az olmayaraq |
| Tökmə sahəsi | 16 | Mövcudluğu layihə tapşırığı ilə müəyyən olunur |
| **Fizioterapiya şöbəsi** | | |
| Elektroişıqla müalicə, lazer terapiyası otağı | 12 | 1 cihaz üçün 6 $m^2$ sahə |
| Hidroterapiya otağı | 12 | 1 cihaz üçün 6 $m^2$ sahə |
| UVÇ, SVÇ və ultrabənövşəyi şüalandırma otağı | 12 | 1 cihaz üçün 6 $m^2$ sahə |
| Fizioterapiya kabineti | 12 | 1 cihaz üçün 6 $m^2$ sahə |
| **İnzibati, yardımçı və köməkçi otaqlar** | | |
| Müdirin (administratorun) otağı | 12 | |
| Qarderob olan işçi heyətinin otağı | 6 | Növbədə işləyən hər bir işçi üçün 1.5 $m^2$. Üst paltarı şkaf-kupedə yerləşdirilə bilər |
| Baş tibb bacısının kabineti | 10 | |
| Medikamentlərin və narkotik materialların saxlanma kabineti | 6 | Baş tibb bacısının kabineti ilə birləşə bilər, eyni zamanda baş tibb bacısının kabinetinin sahəsi böyüdülmür |
| Tibb təyinatlı məmulatların saxlanılma yeri | 6 | |
| Çirkli ağları saxlama anbarı | 4 | Dəhlizlərdə və zirzəmi yerlərdə şkaf-kupelərdə yerləşdirilə bilərlər |
| Təmiz ağları saxlama anbarı | 4 | |

| | | |
|---|---|---|
| Pasientlər üçün tualet | 3 | |
| İşçi heyəti üçün tualet | 3 | Stomatoloji müəssisələrdə stomatoloji kürsülərin sayı 3 artıq olmadıqda pasiyent və işçi heyəti üçün bir tualetin olmasına icazə verilir |
| Təsərrüfat anbarı (yığışdırıcı avadanlıqların saxlanması üçün) | 4 | |

<*> Rentgenoloji şöbənin digər kabinetləri və yardımçı otaqları üçün sahələr – ionlaşdırıcı şüalandırma mənbələrinə olan tələbləri qaydaya salan qüvvədə olan sanitariya qaydalarda baxın.

<**> Stomatoloji müəssisənin işləməsi üçün otaqların minimal toplumuna aşağıdakılar daxildir: vestibül qruppu, stomatoloq həkimin otağı, işçi heyətinin otağı, tualet, anbar otağı.